# Sağlam həyat təhlükəsiz qidadan başlayır

## "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı"nın icrası müzakirə edilmişdir

**Bu gün dünyada ən aktual problemlərdən biri qida təhlükəsizliyi ilə bağlıdır. Təbii olaraq ölkəmizdə də bu məsələ diqqət mərkəzindədir. Prezident İlham Əliyevin 2017-ci il 10 fevral tarixli fərmanı ilə Azərbaycanda Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) yaradılması da bu diqqətdən irəli gəlir.**

Sonrakı illərdə isə Prezidentin iki sərəncamına əsasən, müvafiq dövlət orqanlarının balanslarındakı laboratoriyalar, avadanlıqlar, inzibati binalar və ştat vahidləri AQTA-nın balansına keçmişdir. Bu isə qida təhlükəsizliyi sahəsində yeni mərkəzləşdirilmiş idarəetmə forması yaratmağa imkan vermişdir. Artıq paytaxtda və regionlarda müasir avadanlıqlarla təchiz edilmiş, mürəkkəb təhlilləri aparmağa imkan verən 16 laboratoriyadan ibarət şəbəkə fəaliyyət göstərir.

Bu gün AQTA əhalinin sağlam və təhlükəsiz qida ilə təmin edilməsini, qida mənşəli xəstəliklərin əhəmiyyətli dərəcədə azaldılmasını, habelə kənd təsərrüfatı və qida məhsullarının məhsuldarlığının və rəqabət qabiliyyətinin yüksəldilməsini təmin etməklə məşğuldur ki, bu da daxili və xarici istehlak bazarlarına təhlükəsiz və dünya tələblərinə cavab verən qida məhsullarını çıxarmağa imkan verir.

Bu gün agentlik həm də qida təhlükəsizliyi sahəsində qeydiyyat və təsdiq, idxal sağlamlıq aktı, sağlamlıq, fitosanitar və baytarlıq sertifikatlarının verilməsini həyata keçirir. Qurumun əsas missiyası qida zəncirinin bütün mərhələlərində qida və yem məhsulları, qida ilə təmasda olan material və məmulatların təhlükəsizliyinə nəzarətin həyata keçirilməsidir. Bundan başqa, AQTA qida məhsullarının minimum keyfiyyətinə, həmçinin qida və yem məhsullarının, dövlət baytarlıq və fitosanitar nəzarətində olan yüklərin və istehlakçıların hüquqlarının müdafiəsi sahəsində dövlət nəzarətini də həyata keçirir.

Onu da xatırladaq ki, agentliyin tabeliyində Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu yaradılmışdır. Məqsəd insanların həyat və sağlamlığının qorunması üçün qida təhlükəsizliyinin daha səmərəli təşkilini təmin etməkdir. Bu istiqamətdə ardıcıl olaraq elmi-praktiki araşdırmalar və tədqiqat işləri aparılır, normativ hüquqi aktların layihələri hazırlanır.

Yeri gəlmişkən qeyd edək ki, bu günlər İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində (İİTKM) "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı"nın 2023-cü il üzrə monitorinq nəticələrinə dair işçi müzakirəsi keçirilmişdir. Tədbirdə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Qida Təhlükəsizliyi Agentliyi, Kənd Təsərrüfatı Nazirliyi, Elm və Təhsil Nazirliyi, Dövlət Gömrük Komitəsi, Aqrar Xidmət Agentliyinin məsul şəxsləri iştirak etmişlər.

İİTKM-in icraçı direktoru Vüsal Qasımlı dünyada qida təhlükəsizliyi sahəsində baş verən çağırışların fonunda sözügedən Dövlət Proqramının icrası müddətində həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələrin Azərbaycanın qida təhlükəsizliyinin təmin edilməsində xüsusi əhəmiyyət kəsb etməsini vurğulamışdır. AQTA-nın nümayəndəsi Elxan Mikayılov isə sənədin effektiv icrası ilə bağlı müvafiq addımların atıldığını, bitki və heyvan sağlamlıqları üzrə qanun layihələrinin hazırlandığını, bütün bu işlərin aidiyyəti qurumlarla koordinasiyalı şəkildə həyata keçirildiyini bildirmişdir. İİTKM-in əməkdaşı Səbinə Cumazadə proqramda qarşıya qoyulmuş hədəflər çərçivəsində görülmüş əsas işlər barədə təqdimatla çıxış etmişdir. Görüşdə həmçinin Dövlət Proqramının icrası və monitorinqi zamanı qarşıya çıxan çağırışların həlli ilə bağlı konstruktiv müzakirələr aparılmış, növbəti mərhələdə vəzifələrin icrasına diqqət yetirilməli istiqamətlər vurğulanmışdır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 13 iyun, № 124.- S.5.